Adımız məfkurəmizdir

№40

4 – 17 noyabr 2025-ci il

Türküstan

www.turkustan.az

Aida Eyvazlı Göytürk,
İpək Yolu Mədəni və
Tarixi Araşdırmalar İB-nin sədri,
AzTV-nin İnformasiya Proqramları redaksiyasının
böyük redaktoru

# Daşkənddə Zəngi Ata Mavzoleyi, Sahibgiran darvazası...

## Zəngi tayfaları

### Səfər qeydləri

*...Hava limanına gedən yolların ab-havası bir başqa cür olur. Bir də ki, bu yolun üstündə vətən, yurd, kimlik təəssübkeşliyi varsa, yol sənə qol-qanad verir. Ona görə də nə zaman yolçusu olduğum məsləkim üçün yola çıxıramsa, elə bilirəm ki, qollu-qanadlıyam.*

*Heydər Əliyev adına Hava Limanında mənimlə birlikdə Daşkəndə yola düşəcək operator Fariz Şıxəlizadə ilə görüşüb qeydiyyatdan keçirik. Təyyarəyə minik başlayandan Azərbaycanın Milli Qəhrəmanı, pilot Hökümə Əliyevanın şəkli gözlərimin önündən getmir. AZAL –ın*



*uniformasında gördüyüm bütün xanımlar mənə nakam Hökuməni xatırladır. 'Uzbekiston Havo Yullari" aviaşirkətinin təyyarəsi havaya qalxmağa başlayanda, adətim üzrə yenə əllərimi göyə açıb, sağ-salamat təyinat yerinə çatmağımız üçün Tanrıya, Göy Səmaya dua edirəm.*

Təyyarəmiz yarım saat gecikmə ilə havaya qalxdığından, Daşkənd vaxtı ilə günorta saat 14.10-da yerə enəndə Fariz Daşkəndin təyyarədən görüntülərini lentə alır. Elə bu vaxt sərnişinlər adəti üzrə uçuş heyətinə minnətdarlığını bildimək üçün əl çalırlar. Və qəfildən... təyyarəmiz uğultulu bir sürətlə yenə də göyə qalxır. Salona tam bir səssizlik hakim kəsilib. Təyyarə göydə uçuş xəttini hamarlayandan sonra, yenə də manevrlər edib, yönünü dəyişir... Və bu proses bitmir. Təyyarəmiz demək olar ki, Daşkəndin və hava limanının başına dolanır. İkinci dəfə yenə eniş edir, mən dönüb operotorumun üzünə baxıram. Hiss elətdirməsə də, görürəm ki, dodaqlarının rəngi qaçıb... Həmin anda yenə də əlimi Tanrıya açıb imdad diləyirəm, zikr edirəm ki, Əmir Teymur babamızın ruhu xəbərdar olsun... Mən onun ruhunu Tanrıdan istəyəndə hər zaman işlərim sahmana düşür, çətinlik aradan qalxır. Farizin başını qatmaq, həyəcanını dağıtmaq üçün ağlıma nə gəldi danışıram. Deyirəm ki, belə hallar tez-tez olur. Yəqin başqa aerodroma enəcəyik. Belə kritik vaxtlarda xarakter etibarı ilə heç vaxt qorxu hissim olmur. Lakin içərimdə bir təəssüf var ki, xalxın uşağını özümlə gətirmişəm, Tanrı qəzavü-qədərdən qorusun bizi. Vəziyyətin gərginləşdiyini görüb, heç bir həyəcansız telefonumu açıb havada başımıza gələnlər haqqında video çəkirəm. Yenə Hökumə Əliyevanı xatırlayıram...

Təyyarənin Daşkəndin başına dolanmasının 12-ci dəqiqəsində hava gəmisinin kapitanı, İqor adında pilot deyir ki, guya küləkli hava şəraitinə görə, çətinlik yaranıb, 5 dəqiqəyə eniş edəcəyik. Beləliklə, təyyarəmiz düz 3 dəfə şəhərin başına dolanandan sonra, 20-ci dəqiqədə eniş edir. Sərnişinlər yenə də uçuş heyətini alqışlayırlar... Telefonumuzda təyyarənin cızdığı hava xəritəsi yoluna baxanda təəccüb məni bürüyür... Buna bənzər şəkil Qroznıda rusların "yaraladığı", ktauya eniş edən təyyarəmizin qəzası zamanı alınmışdı. Sonradan təyyarədə yazdığım videonu izləyəndə isə görürəm ki, mən də özümdən asılı olmayaraq, "Hər şey yaxşı olacaq..." deyə fikrimi bitirmişəm.

... Həyəcanlı anları arxada qoyub, aeroportu tərk edirik. Qapıda bizi tələbəlik dostum,(indiyə qədər də ailəvi dostuq) Özbəkistanın tanınmış hüquqşünası, vəkil Şakir Paşayev qarşılayır. Deyir ki, şükür Allaha ki, salamat endiniz. Aeroportun işçiləri deyirdilər ki, Allaha dua edin... yaman qorxutdunuz bizi...



*Telefonla taksi çağırmaq istəyirik, Şakirin telefonunda problem yarandığından alınmır. Bu vaxt bir gənc özbək oğlana yaxınlaşıb, özbəkcə ondan bizim üçün taksi sifariş etməsini xahiş edirəm.Taksi gələnə yaxın adını sonradan öyrəndiyim Akmal deyir ki, taksinin pulunu artıq özü ödəyib. Neyləsək də, pulu götürmür. Deyir ki, onu da Azərbaycanda hər zaman belə qarşılayırlar, azərbaycanlılardan hər zaman hörmət görüb. Yaddaşımda qalsın deyə, bu vətənpərvər gənclə Özbəkistan bayrağının fonunda şəkil də çəkdirirəm.*

Dostum Şakiri indi çox sevincli və rahat görürəm. Həyəcanı ötüb keçib. Bizim gəlməyimiz onu lap çox sevindirib. Şakir çox vətənpərvər oğlandır. 1984-cü ildən Daşkənddə yaşayır. Azərbaycanlı kimi hər yerdə hörmət qazanıb. Şakir həm də Əfqanıstan veteranıdır. Universiteti də burada bitirib. Ötən 40 ildən artıq müddətdə başına gələn əhvalatları hər zaman elə danışır ki, sanki qara-ağ lentə çəkilmiş film izləyirsən.

Yenə də bizi əvvəlcə evinə aparır. Həyat yoldaşı Nəzakət xanım, həmişəki kimi sevdiyim yarpaq xəngəl bişirib. Onu deyim ki, Nəzakət Niftalıyevanın babası 1937-ci ildə Qazaxıstana Kür qırağından sürgün olunmuş bəylərdəndir. Stalin repressiyalarından keçiblər. Çimkənddə doğulan Nəzakət nənələrinin Azərbaycandan gətirdiyi yemək dadından tutmuş, adət-ənənəyə qədər hər şeyi - bu ocaqda, bu nəsildə və nəslin yerləşdiyi Maxtaaral rayonunda bu günə qədər də yaşatmaqdadır. Qərib ölkələri gəzib, qəribləri tanıdıqca bir mütləqi anladım ki, qəriblər vətən adətlərini, ənənələrini demək olar ki, unutmurlar. Xatirələrlə, məişətlərində yaşatmaqla nəsildən-nəsilə, yaddaşdan-yaddaşa köçürürlər.

*...Axşamüstü telefonuma Hamza Cumayevdən zəng gəldi. Həmzə Cumayevlə 2004-cü ildə Özbəkistana xüsusi müxbir postunun rəhbəri kimi təyin olunanda tanış olmuşdum. O zaman Həmzə Türkiyədə təhsil alan gənc jurnalist kimi mənimlə dostluğu üstünlük vermişdi. Özbəkistan Dövlət Televiziyasında işləyirdi. Bu gün Mərkəzi Asiya regionunda sevilən simadır. Onun hər sözü gənclər üçün yol və dərsdir. Oğlu Məhəmməd Əmir də atasının yolunu davam etdirir.*



Həmzə Cumayev Özbəkistanın tanınmış gənc şairi və jurnalisti, bu yaxınlarda Prezident mükafatına layiq görülən Şuxrat Oriflə birlikdə bizi şam yeməyinə dəvət edirlər.

Dostlarla görüş ən gözəl bayramdır. Biz də Özbəkistan Müstəqilliyinin 34-cü ildönümü ərəfəsində qardaş ölkəyə qonaq gəlmişik. Çilanzar rayonun məşhur restoranlarından birində şam yeməyinə otururuq. Süfrə ətrafında görəcəyim işlər haqqında – Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin donorluğu və Türk Mədəmniyyəti İrsi Fondunun dəstəyi ilə çəkəcəyim itirilmiş tariximiz - "Zəngi tayfaları" (ilkin adını hələ tam qərarlaşdırmamışıq) tarixi-sənədli filmi haqqında dostlara məlumat verirəm. Elə süfrə arxasındaca Həmzə və Şuxrat qarşıdakı günlərdə aparacağım çəkilişlər üçün icazə məsələsini həll edirlər. Lazımi yerlərlə danışıb, yol xəritəmi hazırlayırlar.

Şuxrat və Hamza ilə Azərbaycandakı dostlardan, ölkəmizin Zəngəzur dəhlizi ilə bağlı əldə etdiyi son nailiyyətdən və eyni zamanda Özbəkistanın Azərbaycana etdiyi mənəvi köməkdən də danışırıq. Onlar danışdıqca könüllərində yer salan Azərbaycan sevdasının nə qədər ulu olduğunu daha dərindən hiss edirəm.

Özlüyümdə sevinirəm ki, Mərkəzi Asiya respublikalarında seçdiyim dostlarımın heç birində yanılmamışam. Mən Özbəkistanı, Qazaxıstanı, Qırğızıstanı... sevdiyim qədər, bu yerlərdəki dostlarım də mənim Vətənimi həmin sevda boyda sevirlər.

*... Səhər tezdən Zəngi Ata ziyarətgahına yola düşürük. Bu ziyarətgahı öz dövründə Əmir Teymur abadlaşdırıb. Əmir Teymur müsəlman və türk dünyasının müqəddəs saydığı bütün pirilərin, şairlərin, tarixi şəxsiyyətlərin uyuduqları məkanlara hər zaman xüsusi diqqət yetirərdi. O, XI-XII əsrlərdə yaşamış , əsil adı AyXoca Bağırqani olan bu övliyanın məqbərəsini XIII əsrdə abadlaşdırıb. Əmir Teymurdan sonra nəvəsi Uluqbəy də buranı əsl mavzoleyə çevirdi...*

*Mavzoley kompleksinin gülüstana bənzəyən həyəti ziyarətə gəlib-gedənlərlə dolub-daşır. 13 əsrdir ki, insanlar bu məkanı müqəddəs bilib, ziyarətə gəlib, niyyətlərinə çatdıqlarını deyirlər. Mavzoleyin həyətinin şərq tərəfində qurbangah da var...*

**(ardı gələn sayımızda)**

**Oxu, oxut, abunə ol!**